# Ağsaqqallar üzüm emalı zavodunda və heyvandarlıq-südçülük kompleksində oldular

İyun ayının 15-də rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayevin təşkilatçılığı ilə ağsaqqallar və müharibə veteranlarının bir qrupu Qəbələdə yeni fəaliyyətə başlamış üzüm emalı zavoduna və heyvandarlıq-südçülük kompleksinə baxmaq üçün səfərə çıxmışdılar. Bu Milli Qurtuluş günlərində keçirilən silsilə tədbirlərdən biri idi. Bu səfərin əsas məqsədi hər iki müəssisənin istehsal prosesləri ilə əyani tanış olmaq, ölkəmizdə iqtisadiyyatımızın təməlini qoyan ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev haqqında ağsaqqalların ürək sözlərini eşitmək idi.

Ağsaqqallar şurasının sədri N. Mustafayev bu barədə belə dedi: bu gün doğma ölkəmizin bütün bölgələrində Milli Qurtuluş Günü təntənəli qeyd edilir. 1993-cü il iyun ayının 15-də dünya miqyaslı siyasi xadim Heydər Əliyev xalqımızın istək və arzusu ilə Azərbaycanda hakimiyyət başına gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. Bu qurtuluşu bizə ulu öndər Heydər Əliyev verdi. O, xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Bu inkişafımız Heydər Əliyev siyasətinin nəticəsidir. Sevindirici haldır ki, böyük öndərin siyasəti onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu uğurlar hər birimizin sevinci və iftixarıdır. Ölkəmizin digər bölgələrində olduğu kimi rayonumuzda da sahibkarlığın inkişafı diqqət mərkəzindədir.





Rayonun Qaradeyn kəndi ərazisində üzüm emalı zavodunun, Ovculu kəndi ərazisində heyvandarlıq-südçülük kompleksinin fəaliyyətə başlaması həmin tədbirlərin davamlılığından xəbər verir. Sevindiricidir ki, bu ilin fevral ayının 28-də ölkə başçısı cənab İlham Əliyev Qəbələ rayonuna səfəri çərçivəsində hər iki istehsal müəssisəsinin açılışında iştirak etmiş, burada çalışanlara uğurlar arzulamışdır.

Ağsaqqallar əvvəlcə üzüm emalı zavodunda oldu. Onları zavodun geniş meydanında zavodun direktoru Əjdər Şəfizadə mehribanlıqla qarşıladı və ağsaqqallara olan sevgi və məhəbbətini bildirdi. Sonra zavodun direktoru üzüm emalı zavodunun fəaliyyəti barədə ağsaqqallara məlumat verdi. Qeyd etdi ki, zavodun təsisçisi «Aspi-Aqro» MMS-nin əsas məqsədi respublikada geniş yayılmış və qədim tarixə malik şərabçılıq sahəsinin əvvəlki şöhrətinin bərpa edilməsi və Azərbaycan süfrəsinin dünyanın ən gözəl, yüksək keyfiyyətli üzüm növləri və şərab çeşidləri ilə təmin olunmasıdır. Zavodun tikintisinə 2010-cu ildə başlanmış və bu ilin əvvəlində tam gücü ilə istifadəyə verilmişdir. «Aspi-winery» üzüm emalı müəssisəsinin illik istehsal gücü 1000 tondur. Zavod İtaliyanın ən məşhur şirkətlərinin avadanlığı ilə təchiz olunmuşdur. Hazırda burada 7 növ məhsul istehsal olunur. Gələcəkdə 11 növ məhsulun istehsalı planlaşdırılır. Ə. Şəfizadə vurğuladı ki, burada istehsal olunan «Savalan» şərabını məşhurlaşdıran hər şeydən əvvəl buranın coğrafi və iqlim şəraitidir. Burada istehsal olunan şərabçılıq üzrə üzüm sortlarının tingləri dünyanın ən qabaqcıl şirkətləri olan İtaliya, Fransa şirkətlərindən gətirilmiş və Savalan vadisində geniş üzüm bağları salınmışdır.

Üzüm bağlarında əkin və becərmə işləri aparmaq üçün xüsusi texnika da alınmışdır. Burada istehsal olunan şərab məhsulları xaricdən alınan yüksək keyfiyyətli palıd çəlləklərdə və çənlərdə saxlanılır, palıd çəlləklərində saxlanılan əksər şərablar sadə içkini nəfis şəraba çevirməyə qadir xüsusi ətir verir. İstehsal olunan şərab məhsulları Rusiyaya ixrac olunur. Şərabların gələcəkdə Ukrayna, İtaliya, İsveç kimi ölkələrə ixrac edilməsi də planlaşdırılır.

Daha sonra bildirildi ki, üzüm emalı müəssisəsi hazırda layihə gücünün 20—30 faizi həddində fəaliyyət göstərir. «Aspi-Aqro»ya məxsus 340 hektar üzüm sahəsində 22 növdə şərab, 14 növdə süfrə üzümü əkilmişdir. Həmin sahədə 200 nəfər mövsümü işlə təmin edilmişdir.

Sonra ağsaqqallar üzüm qəbulu prosesi, ayrı-ayrı istehsal sahələri və qablaşdırma sexi ilə tanış oldular və şərab anbarına baxdılar.

Üzüm emalı zavodundan səfəri başa çatdıran ağsaqqallar heyvandarlıq-südçülük kompleksinə gəldilər. Burada onları kompleksin direktoru İlham Quliyev böyük hörmətlə qarşıladı və kompleksə tanışlıq üçün onlara qısa məlumat verdi. Bildirdi ki, kompleksdə tikinti işlərinin aparılmasına və avadanlıqla təchiz edilməsinə 2011-ci ilin sonunda başlanmışdır. Bu ilin fevral ayında isə işlər tam başa çatdırılmışdır. Kompleks sağmal inəklər üçün fermalardan, yem təsərrüfatı, avtopark və digər köməkçi sahələrdən ibarətdir. Hazırda müəssisədə hər biri gündəlik 25 litrdən çox südvermə qabiliyyətinə malik 655 baş «Helstein Friesian» cinsindən olan inək bəslənilir. Qeyd olundu ki, hər inəkdən bir ildə 8 min 500 litr, ümumi fermada isə gündəlik təqribən 15 ton süd sağımı proqnazlaşdırılmışdır. Süd Qəbələ süd emalı zavoduna göndərilir. Burada «Jalə» brendi ilə ağartı məhsulları istehsal olunur.

Kompleks üçün yem təsərrüfatı rayonun mövcud əkin sahələri hesabına yem təsərrüfatı yaradılmışdır. Bunun nəticəsində müəssisənin yemə olan tələbatı tam ödənilir. Hazırda burada 80 nəfər iş yeri ilə təmin olunmuşdur.

Ağsaqqallar hər iki müəssisədən xoş ovqatla qayıtdılar və səfəri «Sərin» bulaq istirahət mərkəzində nahar süfrəsi arxasında başa çatdırdılar.

---

**2 iyul—Azərbaycan Polisi Günüdür**

# Polis xalqın və dövlətin mənafeyinə xidmət edir

95 il bundan əvvəl təsis edilən daxili işlər orqanlarının keçdiyi şərəfli, eyni zamanda, çətin və fədakar yol tariximizin əlamətdar səhifələrini təşkil edir. Böyük önəm verib qiymətləndirdiyimiz polis günü ölkəmizdə əmin-amanlığın əsas təminatçısı olan daxili işlər orqanları əməkdaşlarının Vətənə və vəzifə borcuna sədaqətinin rəmzi, eyni zamanda hər bir Azərbaycan vətəndaşının bayramıdır. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsis edilmiş polis orqanları mərdlik, cəsarət və rəşadətlərlə zəngin bir yol keçərək həm cümhuriyyət, həm də sovetlər birliyi dövründə öz şərəfli missiyasını layiqincə yerinə yetirmiş, cinayətkarlıqla mübarizənin ön sıralarında duraraq daxili asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm rol oynamış, böyük təcrübə qazanmış, təşkilatı cəhətdən möhkəmlənmişdir.

Bütün bunlarla bərabər, polisin şanlı tarixinin ən mühüm mərhələləri sözsüz ki, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ümummilli liderimizin başladığı böyük quruculuq işləri digər sahələrdə olduğu kimi, daxili işlər orqanlarının fəaliyyətində də öz əksini tapdı. Polis əməkdaşlarımız dahi Heydər Əliyevin rəhbərliyi altında qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində fəal iştirak edərək xidməti vəzifələrinin öhdəsindən fədakarlıqla gəldilər. Ölkənin hüquq-mühafizə orqanları iləçiyin-çiyinə dövlət çevrilişinə cəhdlərin və terror aktlarının qarşısının alınmasında, mütəşəkkil cinayətkar qrup və dəstələrin ləğv edilməsində, əllərdə qanunsuz saxlanılan odlu silahların yığılmasında qətiyyət və peşəkarlıq nümayiş etdirdilər. Heydər Əliyevin diqqət və qayğısı nəticəsində polis orqanlarının maddi-texniki təminatı yaxşılaşdırıldı, şəxsi heyət dövlət qayğısı ilə əhatə olundu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün polis əməkdaşlarının səmərəli fəaliyyəti üçün hər cür imkanlar yaradılmış və bu iş davam etdirilir. Polis əməkdaşlarının sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl addımlar atılmış, polis orqanları yeni məlumat, avadanlıq və axtarış texnalogiyaları ilə təmin olunmuşdur.

Ümumiyyətlə, Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət edir, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirir. Azərbaycan polisi Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə də fəal iştirak etmişdir. Polisin sıralarından xeyli sayda "Milli Qəhrəman" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır.

Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılıb.

Ulu öndərimiz Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə hər il iyulun 2-də Azərbaycan Polisi Günü kimi qeyd olunur.

**Səhifənin materiallarını Aslan CƏLİLOV hazırlamışdır.**
**Fotlar Səhrab Umuyevindir.**